Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan

**Xurşidbanu Natəvanın 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2017**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan:** metodik vəsait / tərt.ed.:R.Məmmədli; red. S.Məlikzadə; ixt red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-49s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Azərbaycan xalqının ədəbiyyatımıza bəxş etdiyi nadir şəxsiyyətlərdən biri də poeziyamızın iftixarı Xurşidbanu Natəvandır. Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.

Xurşidbanu Natəvan Azərbaycan mədəniyyəti tarixində lirik şair və rəssam kimi şöhrət tapmışdır. Nizami, Füzuli və Nəvai kimi nəhəng sənətkarların yüksək poetik ənənəsindən tərbiyə alıb böyüyən Natəvan, ötən yüzillikdə Azərbaycanda yazıb-yaradan qadın şairələrin ən istedadlı nümayəndəsi olmuşdur. O, yüksək şeir mədəniyyəti, orijinal yaradıcılığı ilə M.F.Axundov, Q.Zakir və S.Ə.Şirvani kimi görkəmli ədəbi simaların nəzər- diqqətini cəlb etmişdir. Klassik irsə dərindən yiyələnən Xurşidbanu Natəvan Azərbaycan şeirinin gözəl xüsusiyyətlərini ləyaqətlə davam etdirmiş və qüvvətli rübabı ilə poeziyamıza təsir göstərmişdir.

Bu vəsaiti Xurşidbanu Natəvanın 185 illik yubileyi münasibətilə sizə təqdim edirik. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların Xurşidbanu Natəvan haqqında olan məlumatlarını daha da artırmaqdır. **“Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan”** adlanan metodik vəsait “Giriş” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. Vəsaitin “Giriş” hissəsində Xursidbanu Natəvanın həyat və yaradıcılığından söhbət açılır. Vəsaitin ikinci hissəsində kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## I Bölmə: Həyat və yaradıcılığı

Xurşidbanu Natəvan adı çoxdan bəri dillərə düşmüş, el arasında hörmətlə yad edilən, sevilən, əzbərlənən və haqqında gözəl rəvayətlər yaranan həssas şairə, vətənpərvər şəxsiyyətdir. Natəvanın insana məhəbbət, həqiqətə inam və xeyirxah əməllərə ümid dolu poeziyası həmişə təzədir. Natəvan yaradıcılığı öz mayasını, qaynaqlarını təbiətin munis gözəlliklərindən, baharın həyat qoxulu nəfəsindən, torpağın ətrindən götürmüşdür. Onun həyatının məna, fikir, doğruluq və gözəllik dolu mərhələlərinə baş vurduqca, insan qəlbən zənginləşir.

Natəvan yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamışdır. İlk vaxtlar onun "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən etibarən şairə özünə "Natəvan" (köməksiz, zəif, xəstə) təxəllüsü götürərək, dərin məzmunlu qəzəllərini yaratmışdır. Onun şeirləri hələ sağlığında dildən-dilə düşmüş, müasirləri arasında əlyazma şəklində yayılmışdır. Təxəllüsündən bəlli olduğu kimi, Xurşidbanu Natəvan şeirimizə narahat bir ilhamla, şikayətçi bir ruhla gəlmişdir. Füzulidə olduğu kimi, onun lirikasında da sevinclə kədər birləşərək vəhdət yaratmışdır. Şair bu təzadların arxasında dayanaraq, ictimai ziddiyyətlərin dərin fəlsəfi mənasını axtarmış, ədalətlə haqsızlığı, səadətlə bədbəxtliyi törədən səbəblərin mahiyyətini açmağa çalışmışdır. Arzuları və həyat həqiqətləri arasında böyük uçurum olduğunu dərk edən Natəvan, nə cəmiyyət və təbiət qanunları ilə, nə də yaradılışla barışa bilməmişdir:

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi-qəm olaydı!

Şair burada insanlara zindan kəsilən feodal dünyasının ədalətsiz qanunlarına öz narazılığını bildirmişdir. Lakin, Xurşidbanu şeirlərində romantik boyalara, sentimental əhvali-ruhiyyəyə üstünlük versə də, real zəmindən uzaqlaşmamış, həyata, varlığa biganə qalmamışdır. Onun əsərlərində həyat gözəlliklərinə

canatma, ülviyyətə qovuşma meyli olduqca güclü və təsirli çıxmışdır. Nikbinlik, həyatilik kimi məziyyətlərə Natəvanın təbiət gözəlliklərinə həsr etdiyi şeirlərində də rast gəlirik. Natəvanın mənalı ömrü, hadisələr, ziddiyyətlər və sarsıntılarla dolu həyatı ona zəngin ədəbi material vermişdir. Onun qəzəlləri əsasən ya baş vermiş hər hansı bir əhvalatla əlaqədar yaranmış, ya da unudulmaz təəssüratların, xoş təsadüflərin və ya poetik müşahidələrin məhsulu olmuşdur. Xurşudbanunun şeirlərini məzmun cəhətdən şərti olaraq dörd qismə ayırmaq mümkündür: aşiqanə şeirlər, təbiət gözəlliklərinə həsr edilmiş şeirlər, müasirlərinə yazdığı mənzumələr, hüzünlü şeirlər.

Xurşidbanu Natəvan 1832-ci il avqustun 15-də musiqiçilər və şairlər vətəni Şuşada, Qarabağın son hakimi Mehdiqulu xan Cavanşirin ailəsində dünyaya gəlmişdir. Ailədə "Dürrü yekta", xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağırılmışdır. Natəvan saray tərbiyəsi görmüş, dövrün tanınmış alim və sənətkarlarından dərs almışdır. Müstəsna hafizəyə malik olan Xurşidbanu mütaliə yolu ilə məlumatını dərinləşdirmişdir. Bir sənətkar kimi yetişməsində Natəvanın mənsub olduğu ədəbi mühitin rolu az olmamışdır. Həyat yoldaşı Xasay xanın qulluğu ilə əlaqədar olaraq, Xurşidbanunun dörd-beş ilə yaxın Tiflisdə yaşaması, onun şair və rəssam kimi formalaşmasına böyük təsir göstərmişdir. Tiflis mühiti Xan qızına Qafqazın çoxmillətli mədəniyyəti ilə tanış olmaq və ondan bəhrələnmək imkanı yaratmışdır. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kubarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə cəmiyyətlərdə maraq oyatmışdır. Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir. Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfəri zamanı o, yüksək rütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüşdr. 1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransız yazıçısı A.Düma ilə Xurşidbanunu

rastlaşdırmışdır. Natəvanın həyat yoldaşı Xasay xanın fransız dilində "əsl parisli kimi" danışması qonaqların heyrət və sevincinə səbəb olmuş, aralarında dostluq telləri yaratmışdır. Onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim etmişlər. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumatı da A. Dümanın "Qafqaza səyahət" kitabında öz əksini tapmışdır.

Təbiidir ki, Natəvan kimi istedad və bacarıq sahibi yalnız bir sahədə inkişaf edib qala bilməzdi. Artıq 1870-1880-cı illərdə onun həyatında və yaradıcılığında yeni mərhələ başlamışdır. Şair maarifin, mədəniyyətin yayılmasına kömək göstərmiş, ictimai-mədəni tədbirlərdə fəal işirak etmişdir. Natəvan yollar çəkilməsinə, körpülər salınmasına, məktəb binası tikilməsinə illik gəlirdən xüsusi fond ayırmışdır. İncəsənətin bütün növlərinə bələd olması Natəvanı dövrünün görkəmli sənətkarları ilə yaxınlaşdırmışdır. Onun düzəltdiyi ziyafətlərin, söhbət məclislərinin iştirakçıları çox vaxt müxtəlif sənəti təmsil edən ziyalılar olmuşdur. Uzaq şəhərlərdə oxuyan azərbaycanlı tələbələr, yoxsul alim, şair və sənətkarlar Xurşidbanudan yardım almışlar. Qarabağla birlikdə bütün Zaqafqaziyanın sənət sahibləri onun himayəsinə sığınırdılar.

Həyatını dövrün tələbləri səviyyəsində qurmağa adət edən Natəvanın vətənində yaratdığı yeniliklərin, zövq və həvəslə gördüyü işlərin sədası uzaq ellərə yayılmışdır. Natəvanı Qarabağın abadlaşdırılması, Şuşanın mədəni görkəm alması məsələsi ciddi düşündürmüşdür. O, 1873-cü ildə yüz min manat sərf edərək, yeddi kilometrlik məsafədən sıldırım qayaların döşü ilə Şuşaya içməli su çəkdirmişdir. Şəhər əhalisi bunu əsl fədakarlıq, vətənpərvərlik nümunəsi kimi alqışlamışdır. Yüksək ideyalarla, pak niyyətlərlə yaşayan bu qeyrətli qadın, şəhər sakinlərinin yüz illik arzusunu həyata keçirdikdən sonra bulaq çəkdirmiş, su ambarı, hamam, buzxana tikdirmiş və park saldırıb camaatın istifadəsinə vermişdir. Əsl mənada Natəvan vətənin

rifahı naminə canını, varını əsirgəməyən, xalq yolunda ürəyini məşəl edən el anası olmuşdur.

Natəvanın yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə sıx bağlıdır. F.Köçərli bu dövrü "XIX əsr ədəbiyyatının xoşbəxt zamanı" adlandırmışdır. 1872-ci ildə Xurşidbanunun təşəbbüsü və maddi yardımı ilə əsası qoyulan "Məclisi-üns" ədəbi məclisi öz ətrafına otuza yaxın şair toplamışdır. "Məclisi-üns" üzvlərinin sayına və tərkibinə görə sonradan təşkil edilən "Beyti-Fəramuşan" (Şuşa), "Məcməüşşüara" (Bakı), "Beytüssəfa" (Şamaxı) məclislərindən fərqlənmişdir. F.Köçərli Şuşa ədəbi məclislərinin ümumən şeirimizin inkişafındakı rolundan danışarkən qeyd etmişdir: "Xüsusən Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton vermişlər".

Natəvanın 20 ilə qədər rəhbərlik etdiyi "Məclisi-üns" də Azərbaycan, fars dilləri ilə yanaşı, çığatay dilində də qiymətli mənzumələr yaranmışdır. Məclisdə klassiklərdən tərcümələr edilmiş, Xaqani, Nizami və Füzuli kimi qüdrətli qələm sahiblərinin əsərlərinə nəzirələr yazılmışdır. Şeirlərin bir qismi də məşğələ zamanı məclis üzvlərinin bədahətən söylədikləri beyt və ya misralardan düzəlmişdir. Qarabağ şairləri Azərbaycanın bir çox şəhərləri ilə birlikdə, Tiflis, Orenburq, Həştərxan, Buxara, Mərv, Bombey, Kəlkətə və Bağdad şəhərləri ilə də ədəbi əlaqə saxlamışlar. Bu məclislərdə adlı-sanlı şair, musiqiçi və rəssamların sənətkarlığı izlənmiş, onların incəsənətə gətirdikləri yenilik müzakirə edilmişdir. Bu zaman Xurşidbanunun ilhamla qələmə aldığı "Eylər", "Gətirir", "Mən idim", "Sən idin", "Bənzətdim" və "Ölürəm" rədifli ürəyəyatan qəzəlləri Azərbaycan şairləri arasında şövqünü artırmışdır. Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Gəncə, Naxçıvan, Ordubad şairləri Natəvan əsərlərindəki yüksək sənətkarlıqdan təsirlənərək, onlarca nəzirə və təxmis yazmışlar.

Natəvan yaradıcılığının bir hissəsini şairin şəxsi faciəsi ilə əlaqədar olaraq 1885-1886-cı illərdə yazdığı silsilə şeirləri təşkil edir. Bu əsərlərdə oğlunun ölümü ilə ağır matəmə batan, mənəvi sarsıntılara məruz qalan və göz yaşları içərisində boğulan bədbəxt ananın ah-naləsi eşidilir. Xurşidbanunun iztirabları, əzabları çoxaldıqca şəxsi kədər dairəsindən kənara çıxıb, çox analara məxsus olan ələm və qüssə həddinə çatmışdır. Üz vermiş fəlakət bəzən də talesiz aşiqlərin başına gələn müsibətlər timsalında təzahür etmişdir:

Nə hicrü yarə təqatü halim vəfa edər,
Nə vəslə çatmaz əl, edibən dad, ağlaram.

Şair, bəzən də çəkilməz dərdlərini bəşəri faciə səviyyəsinə qaldırır:

Düşəydi çərx gərdişdən, olaydı dəhri – dün viran,
Bəşər tab eyləməz hərgiz, zəminü asiman ağlar.

Natəvanın 1886-cı ildə 227 səhifədən ibarət tərtib etdiyi “Gül dəftəri” adlı məşhur albomunda on üç şeiri, naturadan çəkdiyi təsvirlər və müasirlərinin lirik parçaları toplanmışdır. Və hal-hazırda bu dəftər Respublika Əlyazmaları fondunda saxlanılır. Şairlərdən M.R.Fəna, M.Məmai, H.Yüzbaşiyev albomdakı tikmə və şəkillərə mənzumələr həsr etmiş və Xurşidbanunun sənətkarlığını Şərqin məşhur rəssamları, nəqqaşları ilə müqayisədə qiymətləndirmişlər.

Ömrünün son beş ili Natəvan üçün həm həyatda, həm də sənətdə ağır və böhranlı keçmişdir. Şairə 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat etmişdir. Dəfn mərasimində iştirak edən camaat, hörmət əlaməti olaraq, şairənin cənazəsini Şuşadan Ağdama qədər piyada aparmış, Xan qızı Ağdamda “İmarət” deyilən ailə qəbiristanlığında dəfn olunmuşdur. Şairin ölümü təkcə Azərbaycanın yox, bütün Qafqazın qabaqcıl, maarifpərvər adamlarını kədərləndirmişdir. Bu münasibətlə “Qafqaz”,

“Tərcüman” və başqa qəzetlərdə nekroloqlar və Natəvanın həyat fəaliyyəti haqqında yazılar dərc edilmişdir. Xurşidbanunun vəfatı şairlər tərəfindən “ədəbiyyat aləminə üz vermiş fəlakət”, şeir məclisində “günəşin batması” kimi obrazlı ifadələrlə qələmə alınmışdır.

XX əsrin ilk yarısında Xurşidbanunun şeirlər məcmuəsi bir neçə dəfə çapdan çıxmışdır. Respublikamızın paytaxtı Bakıda iki yerdə şairə əzəmətli heykəl qoyulmuş, vətəni Şuşada tunc büstü ucalmışdır. Onun bədii irsi 1937-ci ildən etibarən rus dilinə tərcümə olunaraq Moskvada, Leninqradda və Bakıda çıxan ədəbi jurnallarda, antologiyalarda işıqlandırılmışdır.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Bu il Azərbaycan ədəbiyyatının xanım şairlərindən biri, parlaq bədii istedada malik söz sənətkarı, ədəbiyyatımızın tarixində özünəməxsus layiqli yeri olan Xurşidbanu Natəvanın anadan olmasının 185 ili tamam olur. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır. Yubiley münasibəti ilə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. İlk öncə kitabxanada Xurşidbanu Natəvanın yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir.

Sərgidə Natəvanın indiyə qədər çap olunmuş kitabları, onun haqqında şair və yazıçıların yazdığı əsərlər ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur.

















Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Xurşidbanu Natəvan-185”, “Poeziyada yaşayan həyat”, “Sərhədlər aşan poeziya”, “Şair ömrü”, “Xalq yolunda ürəyini məşəl edən el anası”, “Təbiət şairi”, “Böyük Azərbaycan qızı”, “Tariximizin fəxri: qadın hökmdarımız Xurşidbanu Natəvan”, “Tək inci kimi parlayan Xan qızı Natəvan”, “İncə qəlbli böyük xeyriyyəçi şairə Xurşidbanu Natəvan”, “Füzuli məktəbinin layiqli davamçısı Natəvan” və s. ***Sərgi təşkili zamanı görkəmli şəxsiyyətlərin Natəvan haqqında söylədiyi müdrik kəlamlardan da istifadə etmək olar.***

Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Xüsusən Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton vermişlər. Xurşidbanu Natəvan da bu şairlərdəndir.

**Firidun bəy Köçərli,**
*görkəmli Azərbaycan maarifçisi*

Xurşidbanu Natəvanın insana məhəbbət, həqiqətə inam və xeyirxah əməllərə ümid dolu poeziyası həmişə təzədir. Onun şeirləri öz mayasını, qaynaqlarını təbiətin munis gözəlliklərindən, baharın həyat qoxulayıcı nəfəsindən, torpağın ətrindən götürmüşdür.

**Məsud Əlioğlu,**
*filologiya elmləri doktoru*

Xurşidbanu Natəvan ədəbiyyatımızın rövnəqlənməsində, təsir və nüfuz dairəsinin genişlənməsində muhum rol oynamış, mənəvi xəzinəmizin ətirli gül-çiçəyi hesab olunmuşdur.

**Şamil Qurbanov,**
*professor*

Natəvan talantlı, həssas, lirik şairə olub, Füzuli məktəbinin layiqli davamçısıdır.

**Səməd Vurğun,**
*Xalq şairi*

Xurşidbanu Natəvan ürəyi Vətən və xalq məhəbbəti ilə döyünən, xalqın rifahı və mənafeyi yolunda hər cür çətinliklərə dözən və bu yolda yorulmaq bilməyən şairədir.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Həzin, səmimi lirika, təbiət gözəlliklərinin və insanın könül dünyasının bəzən gerçək, bəzən isə romantik, təsirli poetik vasitələrlə təsviri Xurşidbanu Natəvan yaradıcılığının başlıca özəlliklərindəndir. Natəvanın əsərləri bədii sənətkarlıq baxımından kamil şeir nümunələridir.

**Zaman Əsgərli,**
*Professor*

Natəvanın təbiət gözəllikləri mövzusunda yazdığı şeirlər nikbin əhvali- ruhiyyə oyatmaqla bərabər, təbiətdəki ülviyyəti duymağı, sevməyi tərbiyə edir və həyatın mənasını aydınlaşdırmaqda oxucuya yardım göstərir.

***Bəylər Məmmədov,***
*ədəbiyyatşünas*

Füzuliyanə şeirlər yazmaqla fəxr edən Natəvan öz əsərlərində insani duyğuları, həyat və məhəbbəti yanıqlı dil və gözəl üslubla realistcəsinə əks etdirmişdir.

**Fikrət Seyidov,**
*filologiya elmləri namizədi*

Kitabxanalarda yubilyarın həyat və yaradıcılığını təbliğ etmək, bu mövzuda oxucuların bilgilərini artırmaq məqsədilə sual-cavab oyunu təşkil etmək olar. Bunun üçün kitabxanaçı bir həftə əvvəldən oxucuları X.Natəvandan bəhs edən ədəbiyyatlar oxumağı məsləhət görür. Suallara ən çox düzgün cavab verən oxucu kitabxananın müdriyyəti tərəfindən Nümunə üçün aşağıdakı sualları sizə təqdim edirik.

**Suallar:**

1. Uşaqlar "Xurşidbanu Natəvan" kimdir?

**Cavab:** Xurşidbanu Natəvan məhşur şair, "Məclisi-üns" adlı məclisin rəhbəri, rəssam, Şərq təbabətinin gözəl bilicisi, bir çox xəstəlikləri türkəçarə ilə müalicə edən loğman, xeyriyyəçi insan, gözəl tikmələr yaradıcısı olan qabiliyyətli qadın, şahmat oynamaq bacarığı ilə ətrafdakıları valeh edən oyunçu, şərqi və cıdır yarışları üçün xüsusi Qarabağ atları yetişdirən iş adamıdır.

2. Uşaqlar "Xurşidbanu Natəvan" pyesini kim yazıb?

**Cavab:** "Xurşidbanu Natəvan" pyesini xalq yazıçımız İlyas Əfəndiyev yazmışdır.

3. Xurşidbanu Natəvan nə vaxt anadan olmuşdur?
**Cavab:** 1832-ci il avqustun 15-də Şuşada, Qarabağın son hakimi Mehdiquluxan Cavanşirin ailəsində dünyaya gəlmişdir.
4. Natəvanın şeirləri məzmun cəhətdən neçə qismə ayrılır?
**Cavab:** Aşiqanə şeirlər, təbiət gözəlliklərinə həsr edilmiş şeirlər, müasirlərinə yazdığı mənzumələr, qəmli şeirlər
5. Natavanın təşəbbüsü ilə yaradılan ədəbi məclisin adı nə idi və neçənci ildə yaradılmışdır?
**Cavab:** Ədəbi məclisin adı "Məclisi-üns" idi. "Məclisi-üns" 1872-ci ildə təşkil olunmuşdur.
6. Məclisin əsas məqsədi nə idi?
**Cavab:** "Məclisi-üns" adlanan ədəbi məclisdə Xaqani, Nizami və Füzuli kimi qüdrətli qələm sahiblərinin əsərlərinə nəzirələr yazılırdı. Həmçinin məclisdə Azərbaycan, fars dilləri ilə yanaşı, cığatay dilində də qiymətli mənzumələr yaranırdı.
7.Xurşidbanu Natəvanın təbiətlə bağlı şeirlərindən hansını tanıyırsınız?
**Cavab:** "Bənövşə", "Qərənfil", "Gül", "Pərvanə", "Bülbül" və sairə.
8. Xurşidbanu Natəvan şair olmaqla bərabər daha hansı sənətlə də məşğul olurdu?
**Cavab:** Rəssamlıqla.
9. Şairə özünə nə vaxt Natəvan təxəllüsünü götürmüşdü və bu təxəllüsün mənası nə idi?
**Cavab:** 1870-ci ildən şairə özünə "Natəvan" təxəllüsü götürmüşdür. Natəvan sözünün mənası köməksiz, zəif, xəstə deməkdir.
10. Ailədə, xalq arasında Natəvan hansı ləqəblə tanınmışdır?
**Cavab:** "Dürrü yekta", xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağrılmışdır.
11. Natəvanın kədərli şeirlər yazmasına səbəb nə idi?
**Cavab:** 16 yaşlı oğlu Mir Abbasın ölümü.
12. Xurşidbanu Natəvan Bakıda hansı məşhur yazıçı ilə görüşmüşdür?

**Cavab:** Fransız yazıçısı Aleksandr Düma ilə görüşmüşdür.
13. "Natəvan" poemasının müəllifi kimdir?
**Cavab:** "Natəvan" poemasının müəllifi görkəmli Azərbaycan şairi Məmməd Rahimdir.
14. Xurşidbanu Natəvan haqqında hansı xalq şairimiz şeir yazmışdır?
**Cavab:** Xalq şairi Səməd Vurğun 1935-ci ildə şairənin xatirəsini əbədiləşdirmək üçün Natəvan şeirini yazmışdır.

Hamımıza məlumdur ki, Əzizə Cəfərzadə 1963-cü ildə "Natavan haqqında hekayələr" yazmışdır. Bu hekayələrdə o, Xurşudbanu Natəvanın həyatını dolğun ifadələrlə qələmə alıb. Kitabxanaçı Xurşidbanu Natəvanın yubileyi münasibətilə kitabxananın kiçik oxu zalında oxuculara bu hekayələr haqqında məlumat verə bilər. Həmçinin Kamran Məmmədovun qələmə aldığı "Azərbaycan yazıçılarının həyatından dəqiqələr" kitabından Xurşidbanu Natəvanın həyat və yaradıcılığından bəhs edən (85səh -91səh) qeyri-adi və qəribə hadisələr, maraqlı anlar, məlumatlar oxucular üçün çox maraqlı olar. Ümidvarıq oxucular bu nümunələri maraqla qarşılayacaq, bədii zövq alacaqlar.

Kitabxanada Natəvan irsinin oxucular arasında təbliği üçün şeir müsabiqəsinin keçirilməsi maraqlı olar. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, bu tədbir uşaqlarda şeiri daha dərindən duymaq, başa düşmək haqqında təssəvvür oyadır. Müsabiqəni şairin təbiətlə bağlı şeirlərinə həsr etmək olar. Çünki təbiət gözəlliklərinin təsviri mövzusuna yazdığı şeirlərdə şairin təbiətdən aldığı zövq və fərəh hissiləri məhəbbət motivləri ilə birləşərək yüksək şeriyyətlə səslənir.

*Şeir müsabiqəsinin giriş hissəsində kitabxanaçı bu şeirlərin məzmunu, yazılma səbəbi haqqında ətraflı məlumat verir.*

**Kitabxanaçı:**Natəvanın təbiət gözəlliyinə, bənövşəyə, qərənfilə, bülbülə həsr etdiyi şeirləri də vardır. Doğma təbiətin gözəlliklərindən ilham alan şair düşüncələrinin bədii inikası kimi yaradılan bu əsərlərdən həyat ətri, gülün, çiçəyin xoş rayihəsi gəlir. Şair təbiət gözəlliklərini sevən aşiqin mənəvi dünyası, qayğıları ilə təmasda, möhkəm əlaqədə təsvir edir. Təbiət gözəlliklərinin tərənnümünə həsr edilməsinə baxmayaraq, bu şeirlərdə həm də güclü bir insan əhval-ruhuyyəsi vardır. Onlarda insana və təbiətə məxsus xüsusiyyətlər, əyilməyən, məğrur mənəviyyat, nəcib duyğular, incə hisslər, ehtiras və məhəbbətlə dolu həyat, hicran, vüsal, etiraf, narazılıq, göz yaşları, yalvarış, ümid, nisgil, səadət həsrəti görmək mümkündür. Bu şeirlərin mərkəzində insan əhval-ruhiyyəsi, onun könül dünyası, mənəvi tələbatı dayanır. Şairin təbiət gözəlliklərinin təsvir və tərənnümünə həsr edilmiş əsərlərində çöl, çəmən, gül, çiçəklə bağlı təsvirlər çox vaxt sevən aşiqin ürək çırpıntıları, keçirdiyi hiss və duyğularla əlaqələndirilir; bu şeirlərin mərkəzində insan, onun böyüklüyü və əvəzsizliyi ideyası dayanır. Bildiyimiz kimi Natəvan, istedadlı şair olduğu qədər də ustad bir nəqqaş idi. Şair öz albomunda çəkdiyi şəkillərin məzmununa uyğun şeirlər yazmaqla təsviri sənətlə poeziya arasında qarşılıqlı rabitə və daxili bir vəhdət yaratmışdır. Onun "Bənövşə", "Qərənfil", "Gül və Süsən","Səfası gülün" "Pərvanə", "Bülbül" tabloları altında yazmış olduğu şeirləri buna gözəl misaldır.

Təbiətə ilk bahar müşdəsi gətirən bənövşə həmişə öz incə gözəlliyi və xoş ətri ilə şairlərin, rəssamların və bəstəkarların mövzusu olmuşdur. Ona həsr edilmiş bir sıra lirik mənzumələr içərisində Natəvanın şeiri xüsusilə seçilir. Onun şeirində bənövşə yeni səpgidə, yeni bədii formada canlanır. Şair özünün "Bənövşə" rədifli qəzəlində təbiət gözəlliyinə məftunluğunu poeziyanın sehrkar dili ilə tərənnüm edir. Qərənfilə həsr etdiyi şeirində də şair təbiət gözəlliyinə münasibətini daha hərarətli bir məhəbbətlə bildirir.

Ümumiyyətlə, bu şeir həyat eşqilə yaşayıb yaradan, real təbiət gözəlliklərindən təsirlənən bir ürəyin nəğməsidir.

Natəvanın doqquz beytdən ibarət olan “Səfası gülün” rədifli qəzəlində el arasında gözəlliyin, zərifliyin və vəfasızlığın timsalı olan gül təsvir və tərənnüm edilir. Biz, burada bahar güllərinin, çiçəklərinin qoxusunu alır, eləcə də şair qəlbinin çırpıntılarını eşidirik. Müəllifin ürəyindən qopan bu lirik və mənalı sətirlər təbiət gözəlliklərinin şair üçün əsas ilham mənbəyi olduğunu sübuta yetirir. Xurşidbanu Natəvan şeiri, incəsənəti varlığın bədii inikası hesab etdiyi üçün gülə həsr etdiyi şeirində gül çöhrəsindəki zərifliyi, nəzakəti sənatkarı yazmağa sövq edən bir qüvvə kimi tanıyır, təbiətdə şair qəlbinə yaxın, sənətkar ruhuna oxşar cəhətlər tapdığına sevinir, güldəki zahiri gözəlliyin mahiyyətcə də gözəl olmasına inanır. Həzin, səmimi lirika, təbiət gözəlliklərnin və insanın könül dünyasının bəzən real, bəzən isə romantik, təsirli poetik vasitələrlə təsviri onun yaradıcılığının başlıca keyfiyyətləridir. Bütün bu keyfiyyətləri nəzərə alaraq müsabiqədə oxucular şairin “Səfası gülün”, “Qərənfil”, “Pərvanə” və “Bənövşə” və s. şeirlərini söyləyə bilərlər. Şeiri gözəl intonasiya ilə söyləyən oxucu kitabxana müdiriyyəti tərəfindən mükafatlandırılacaq. Xurşidbanu Natəvanın “Qərənfil”, “Bənövşə”, “Şəfası gülün”, “Pərvanə” şeirlərini təqdim edirik.

**Qərənfil**

I oxucu:

Səni kimdir sevən bica, qərənfil?
Sənə mən aşiqi – şeyda qərənfil!
Səni gülşən əra asüftə gördüm,
Yəqin bildim dutub sevda, qərənfil!
Belə pəjmürdə hal ilə durubsan,
Düşər güllər əra qovğa, qərənfil!
Driğa kim, vəfasızdır bu gülşən,
Gedər bu taləti - ziba, qərənfil!
Üzündən pərdəyi – nazın kənar et!
Unutma aşiqi, haşa, qərənfil!

**Bənövşə**

II oxucu:

Fələk rənginə bənzər bu bənövşə,
Tutub səhraları hərsu, bənövşə!
Neçün gülşənlərin tərkin qılıbsan?
Düşübsən çöllərə dilcu, bənövşə!
Belə qəddin bükülmüş, pirlər tək,
Deyirsən sübhü şam “yahu”, bənövşə!
Səni şövqü bahar aşüftə qılmış,
Çəkər aşiq olan qayğü, bənövşə!
Dilər ətrin könül badi-səbadan,
O zülfi – yar tək xoşbu, bənövşə!

**Səfası gülün**

III oxucu:

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.
Cəfayi- xari görüb, köçdü bağdan bülbül
Görən kim oldu bu gülşəndə aşinası gülün?
Xəzanə meyl elədi, almadı vəfa nəzərə,
Yetişdi bülbülə çox-çox qəmu cəfası gülün.
Tökür sirişk əvəzinə, gözün üzrə al qan,
Olubdu çünki könül zaru mübtəlası gülün.
Yazılsa nöqtəbənöqtə, deyilsə hərfbəhər
Qurtarmaz həşrə qədər hali-məcarası gülün

**Pərvanə**

IV oxucu:

Özün eşq atəşinə vurmağa dilşad pərvanə,
Bəli, bir dəfə yanmaqdan olur azad pərvanə
Görür məclislər içrə şəmi hər şəb yari - əğyarə,
Onunçun yanmağın tərhin qılır bunyad pərvanə
Sənə ey şəm, töhmətlər qalır məşuqələr içrə,

Əgərçi xirməni – ömrün qılır bərbad pərvanə
Demə məşuqi - bipərvadır şəmə kim, məlamətdən
Verib can sübhətək, oldu vəfadan şad pərvanə.
Bilib şəmin vəfasın, cismi-canın atəşə yaxdı,
Qəmi-hicri-dəmi – vəslində etdi şad pərvanə
Cəfayi- hicrdən canə yetib şövqi-vüsal ilə,
Yanıb şəmin oduna, etmədi fəryad pərvanə.
Yanar gün Natəvan xəstə müdam ol atəşi-qəmdən,
Səbur ol, eylə adət, şiveyi – ustad, pərvanə!

Şeir müsabiqəsi ilə yanaşı rəsm müsabiqələrinin də təşkili mümkündür. Müsabiqədə həmin bu şeirlərə uşaqlar tərəfindən şəkillər çəkilməsi tapşırılmalıdır. Rəsmlərin çəkilməsi üçün oxuculara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Natəvanın əsərlərini oxuyub, həm də oxuduqları və ən çox bəyəndikləri təbiət şeirlərinə rəsmlər çəkə bilərlər. Ən gözəl məna kəsb edən rəsm işləri də kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Xurşidbanu Natəvanın yaradıcılığı müasir gəncliyin gözü ilə" adlı oxucular konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Xurşidbanu Natəvan yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Natəvanın həyat və yaradıcılığı haqqında məruzə)
2. Xurşidbanu Natəvanın yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Natəvanın müxtəlif əsərləri ətrafında müzakirələri. Şairin əsərlərinə yazılmış mahnılar dinlənilir, şeirləri, qəzəlləri söylənilir.
4. Konfransın yekunu.

Kitabxanada yuxarı sinif şagirdləri ilə ***"Füzuli məktəbinin layiqli davamçısı Natəvan"*** adlı sərgi ətrafında oxucularla söhbət də, keçirmək olar.
*Bunun üçün kitabxanaçı bir həftə əvvəl oxuculara Xurşidbanu Natəvanın kitablarını oxumağı məsləhət görür. Kitabxanada şairənin yaradıcılığını əhatə edən sərgi təşkil edilir, slayd hazırlanır. Kitabxanaçı şairənin həyat və yaradıcılığı haqqında konkret şəkildə oxuculara məlumat verir. Sonra isə isə şairənin yaradıcılığında dahi şairimiz M.Füzulinin ədəbi təsirinin olmasından söhbət açır və oxuculara şeirlərindən nümunələr gətirir.*

**Kitabxanaçı:** Xurşidbanu Natəvan bədii əsərlərinin əksəriyyətini klassik sənətkarların, xüsusilə Məhəmməd Füzulinin ədəbi təsiri ilə yazmışdır. Şairin qəmli, kədərli həyatı, çəkdiyi möhnətlər, keçirdiyi iztirablar, könül narahatlığı onu ruhən Füzuliyə yaxınlaşdırmışdır. Ustadın qəzəllərində Natəvan özünün ürək tərcümanını, qəlb duyğularının ifadəsini görmüş, buna görə əsərlərində həmişə Füzuli şeirinin poetik xüsusiyyətlərindən, bədii leksikasından, təsvir və ifadə vasitələrindən gen-bol bəhrələnmiş, bəzən hətta müəyyən hissələri təkrar etmişdi. Füzulinin ədəbi təsiri Natəvanın məhəbbət şeirlərində daha güclüdür. Dahi sələfinin ənənələrini davam etdirən Natəvan məhəbbəti yüksək bəşəri hiss, insanı ucaldan əxlaqi keyfiyyət kimi qiymətləndirir. Onun vəsf etdiyi məhəbbət insanlara sədaqət, vəfa, etbar, inam hissləri aşılayır. Dahi Füzulidə olduğu kimi, Natəvanın qəzəllərində də, eşqin mənası və mahiyyəti insanı ucaldan, onu təbiətin nadir incisi, kamal və mərifət sahibi edən keyfiyyətdir.

M.Füzuli poeziyasının təsiri Natəvanın şeirlərinin yalnız məzmununda, mövzu və ideyalar aləmində deyil, onun yaradıcılığının formasında, bədii strukturunda, qəzəllərinin vəznində, daxili bölgüsündə, habelə poetik dilində, təsvir və ifadə sistemində də aydın müşahidə edilir. Onun "Bilin yaran, bu dünyada hərə bir kar ilən oynar", "Olmuşam dəhri-bəla içrə bu gün divanə mən", "Dilbəra, dərdi-dilimdən belə ünvan etdim", "Zəmanə saldı əcəb möhnətü məlalə məni" misraları ilə başlanan qəzəlləri bilavasitə Füzulinin təsiri ilə yazılmış, Natəvan ustadın sənətkarlğından yüksək bacarıqla bəhrələnmişdir.

Şairin "Olan könlüm" rədifli qəzəli də Füzulinin "Könlüm" rədifli qəzəlinə nəzirə kimi yazılmışdır. Müəllif özünün daxili təlatümlərini, könül çırpıntılarını, qəlb dünyasının təzadlarını əks etdirərkən dahi sələfinin poetik təcrübəsindən, bədii idrak və inikas üsullarından, fikri ifadə etmək, oxucuya çatdırmaq tərzindən faydalanmışdır. Natəvanın şeirində işlənən rədif və qafiyələrin bir qismi, xüsusilə "mənim bu şad olan könlüm", "ustad olan könlüm", "abad olan könlüm" kimi ifadələr dərhal Füzulinin "Tutuşdu qəm oduna şad gördüyüm könlüm" misrası ilə başlanan qəzəlini yada salır. Aydın görünür ki, Natəvan Füzulinin poetik cazibəsindən uzaqlaşa bilmir. XIX əsr Azərbaycan poeziyasında Füzuli yaradıcılığından bəhrələnmənin, füzuliyanə yazılmış qəzəlin gözəl nümunələrindən biri kimi diqqəti cəlb edən bu qəzəldə Natəvanın yaradıcılıq özünəməxsusluğu da nəzərə çarpır. Sələfindən fərqli olaraq o, daxili qafiyədən istifadə etməklə, misralardakı poetik yükü daha da zənginləşdirmiş, şeirin axıcılığını qüvvətləndirmişdir. Bəli, Xurşidbanu Natəvan Füzuli məktəbinə mənsub sənətkar şairədir və onun fikirləri, duyğu, meyil və hisləri klassik poeziyanın qəzəl janrında bütün məna xüsusiyyətləri ilə əks olunmuşdur. Məlum olduğu kimi, qəzəl klassik Azərbaycan şeirinin geniş yayılmış, kütləviləşmiş növüdür. Bu janrın spesifik xüsusiyyətləri vardır ki, şairin dili

ilə həyat, zaman və insanlıq haqqında bildirilən lirik, fəlsəfi-aşiqanə fikirlərin şərhidir. Natəvan, özünün şeir üslubunda, bədii təsvir və bədii ifadə vasitələrində dahi Füzulinin sənətkarlıq incəliklərini yeni səpkidə, orijinal bir tərzdə ifadə etməyə müvəffəq olmuşdur. Muğamlarımızda müğənnilərimizin sevə-sevə oxuduğu "Yenə ya rəb, nə qəmgindir mənim bu şad olan könlüm" qəzəlini oxucumuzun ifasında dinləyək.

*Oxucu Natəvanın qəzəlini söyləyir.*

Yenə, ya rəb, nə qəmgindir mənim bu şad olan könlüm,
Rümuzi-eşqdən agah olub, ustad olan könlüm.

Görübdür yari əğyarə, olubdur məhvi-nəzzarə,
Edibdir sinəsin parə, mənim abad olan könlüm.

Niyə peymanədən keçdin, niyə zəncirdən qaçdın?
Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?

Fəraqın ruzi-məhşərdir, sərasər möhnəti-qəmdir,
O zülfün kimi dərhəmdir, mənim azad olan könlüm.

Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə,
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

*Söhbətin sonunda yaxşı olar ki, musiqi məktəbinin şagirdlərinin ifasında Xurşidbanu natəvanın qəzəli muğam şəklində səslənsin.*

Oxucularımızın sevimli şairəmiz haqqında olan fikirlərini öyrənmək məqsədilə Xurşidbanu Natəvan ilə bağlı onlara anket sorğuları paylanır.

1. Xurşidbanu Natəvanı tanıyırsınızmı?
   ☺ Bəli
   ☺ Xeyir

2. Şairə mənşə etibarilə hansı nəslə mənsub idi?
   ☺ ________________________________________________

3. Şairəyə nə üçün Xan qızı Natəvan deyə müraciət olunurdu?
   ☺ ________________________________________________

4. Xurşidbanu Natəvanın harada anadan olduğunu bilirsinizmi?
   ☺ Bəli
   ☺ Xeyir

5. Natəvanın şeirlərini oxumusunuzmu?
   ☺ Bəli
   ☺ Xeyir

6. Natəvanın ən çox sevdiyiniz şeirinin adını qeyd edin.

   ☺ ________________________________________________

7. Natəvanın “Ağlar”, “Əfsus”, “Getmə”, “Sənsiz” rədifli qəmli qəzəlləri yazmağına səbəb nə idi?

   ☺ ________________________________________________

8.Xurşidbanu Natəvanın yaratdığı “Məclisi-Üns” haqqında məlumatınız vardırmı və bu məclis neçə il fəaliyyət göstərmişdir?

☺ Bəli
☺ Xeyir

9.“Məclisi-Üns”də hansı dillərdə qiymətli mənzumələr yazılmışdır?

☺ ______________________________________________

10.Natəvanın təbiət haqqında yazdığı hansı əsərlərini oxumusunuz?

☺ ______________________________________________

11. Xurşidbanu Natəvanın neçənci ildə vəfat etmiş və harda dəfn olunmuşdur?

☺ ______________________________________________

Kitabxanada Xurşidbanu Natəvanın 185 illik yubileyi ilə əlaqədar ədəbi-bədii gecənin keçirilməsi məqsədəuyğundur. Çünki kitabxanada ədəbi-bədii gecələrin təşkili yubilyarın həyat və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verir. Gecəyə Xurşidbanu Natəvanın yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, ədəbiyyatşünaslar, tənqidçilər, jurnalistlər dəvət oluna bilər. (Məsələn: X.Natəvan yaradıcılığı ilə yaxından maraqlanan professor Zaman Əsgərli) Ədəbi-bədii gecədə şairənin yaradıcılığı haqqında maraqlı söhbətlər edilir, qəzəlləri dinlənilir. Ədəbi-bədii gecənin ssenarisini təqdim edirik.

*Əvvəlcə iştirakçılara Xurşidbanu Natəvanın həyat və yaradıcılığından bəhs edən **"Xalq yolunda ürəyini məşəl edən el anası"*** adlı *slayd təqdim olunur. Sonra isə aparıcılar səhnəyə daxil olurlar.*

**I Aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar. Bu il Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuş, parlaq istedada və qabaqcıl ideyalara malik şəxsiyyət, sənət və ədəbiyyat aləmində Azərbaycanın klassik ənənələrindən bəhrələnmiş, bunları öz poeziyasında uğurla davam etdirmiş, Qarabağ xanlarının vərəsəsi sayılan Xurşidbanu Natəvanın 185 illik yubileyi qeyd olunur. Həzin, səmimi lirika, təbiət gözəlliklərinin və insanın könül dünyasının bəzən real, bəzən isə romantik, təsirli poetik vasitələrlə təsviri şairənin yaradıcılığının başlıca keyfiyyətləridir.

**II Aparıcı:** Xurşidbanu Natəvan adı çoxdan, el arasında hörmətlə yad edilən, sevilən, əzbərlənən və haqqında gözəl hörmətlə yad edilən, sevilən, əzbərlənən və haqqında gözəl rəvayətlər yaranan həssas şairə, vətənpərvər şəxsiyyət və taleyi kəm, bədbəxt qadın - ana olaraq duyan könüllərə silinməz izlər buraxmışdır. O, ötən əsrdə şairlər, müğənnilər və sənətkarlar oylağı kimi şöhrət qazanan Qarabağda, Azərbaycanın bu məlahətli, könül açan diyarında doğulub-böyümüş, kamala çatmışdır. Natəvanın qəzəlləri, düşündürücü və müdrik kəlamları, həmçinin əsl vətəndaşa layiq bir hünərlə xalq işi uğrundakı əməllərinə görə ədəbiyyat və mənəviyyat tariximizdə fəxri bir yer tutmuşdur.

**I Aparıcı:** Xurşidbanu Natəvanın şəxsi həyatı ilə bədii yaradıcılığı və ictimai fəaliyyəti ilə düşüncə - fikir aləmi arasında mənalı bir ahəngdarlıq vardır. Şairə adlı-sanlı bir zadəgan nəslinə mənsub olsa da, nəcabəti, yüksək insani ləyaqəti, həlim, humanist təbiəti və yoxsullara, əzilənlərə həyan olması sayəsində geniş xalq kütləsinin, camaatın dərin hörmətini

qazana bilmişdir. Nəinki şairənin doğulub-böyüdüyü Qarabağda, ümumən, bütün Azərbaycanda “Xan qızı Natəvan” haqq tərəfdarı, insaf mücəssəməsi, xeyirxahlıq və rəhmdillik simvolu olaraq tanınır, sevilir və təqdir olunur. Xalq işi uğrunda çalışan vətəndaş olaraq da onun adı həmişə minnətdarlıqla yad olunur.Onun, mühüm bir abadlıq işlərindən biri də, Şuşanın yeddi kilometrliyindən şəhərə su kəməri çəkdirməsidir.

*Söhbət X.Natəvanın xeyirxah əməllərindən düşmüşkən gəlin, görkəmli ədib, xalq yazıçısı İlyas Əfəndiyevin yazdığı “Xurşudbanu Natəvan” pyesindən oxucularımızın ifasında səhnələşdirilmiş parçaya tamaşa edək.*

*Xurşidbanu, Mirzə Ruhullah, Nəvvab, Seyid Hüseyn, Mamayının sözlərini səsləndirən 5 oxucu səhnəyə daxil olur.*

**Nəvvab:** Banu bəyim! Gur meşələrin, sərt qayaların arasından çəkdirib, bu uca qalaya çıxartdığınız o bulaq gələcək nəsillərə sizdən unudulmaz yadigardır.

**Səslər:** Təbrik edirik!

**Xurşidbanu:** Sağ olun ağalar! Lakin mən əminəm ki, gələcək nəsillər elə kiçik bulaqlarla kifayətlənməyəcək!

**Nəvvab:** Varını verən utanmaz, Banu bəyim. Siz əlinizdən gələni əsirgəmirsiniz.

**Mamayı:** O kiçik bulaq gecə-gündüz sizin şəninizə nəğmələr oxuyacaq.

**Səslər.** Sağ olsun Xurşidbanu! Ömrü uzun olsun şairənin!

**Xurşidbanu:** Mirzə Ruhulla, tapşırın xəbər versinlər ki, bulağın açılışı münasibətilə sabah bütün şəhər əhli mənim

qonağımdır. Bu axşam isə, siyahı üzrə bütün kasıblara şirniyyat, düyü və yağ paylansın.

**Nəvvab:** Sağ olun, Banu bəyim. Sizi bir daha təbrik edirik. Gedək ağalar. Şairəyə dincəlmək lazımdır. Şəhərdən ayaq üstündədir.

*Natəvandan başqa bütün iştirakçılar səhnəni tərk edirlər. Canişin obrazında oxucu səhnəyə çıxır.*

**Canişin:** Əlbəttə, Fərəc bəy sizin sarayınıza gəlməkdə qəbahət iş tutmuşdur. Siz də onu pis cəzalandırmamısınız. Lakin, Banu bəyim, bəla orasındadır ki, həmin həbs olunan adamlar haqqında bütün məlumatı sizin öz millətinizdən, hətta öz zadəgan sinfinizdən olan adamlar vermişdir.

**Xurşidbanu:** Ah, knyaz, bilirsiniz ki, namuslu adam heç vaxt bu dərəcədə alçaqlıq eləməz!

**Canişin:** Doğrudur. Mən sizə inanmaya bilmərəm. Lakin o məlumatların yalan olduğuna əlahəzrət imperatoru inandırmaq çətindir. Axı, bizdə məxfi şöbə də var... Vəliəhdin öldürülməsinin siyasi nəticəsi biz gözləyən kimi də oldu. İran şahı bizi ittiham edir.

**Xurşidbanu:** Əlahəzrət hökumətinin bi işdə əli olmadığını sübut üçün günahsız adamları badi-fənaya vermək olarmı, knyaz?

**Canişin:** Hər şey diqqətlə öyrəniləcəkdir. Həbs edilən şəxslər, hətta, siz özünüz də əlahəzrət hökumətinə qarşı düşmənçilikdə təqsirləndirilirsiniz.

**Xurşidbanu:** Vətən, millət xainləri sizə dürüst məlumat verməyiblər, knyaz!

**Canişin:** Bəs, dürüstü nədən ibarətdir, Banu bəyim?

**Xurşidbanu:** Biz istəyirik ki, Cənubi azərbaycanlılar qəddar İran şahlarının zülmündən azad olsun. Biz öz qan qardaşlarımızla birləşmək istəyirik. Biz onu da bilirik ki, tək-tək caniləri qətlə yetirməklə bu böyük amala yetə bilmərik, böyük döyüşə isə, gücümüz çatmır... Bizə kömək eləyən yoxdur...

**Canişin:** Mən sizi başa düşürəm, Banu bəyim. Çox təəssüf ki, beynəlxalq vəziyyətin indiki halında imperator həzrətləri sizə heç bir kömək eləyə bilməz. Arzular müxtəlif olduğu qədər də ziddiyyətlidir; deyirlər sizin yazıçılar, ziyalılar hər cürə mütləqiyyət əleyhinədirlər.

**Xurşidbanu:** Şəxsiyyət, vicdan azadlığı olmayan yerdə hansı həyatdan danışmaq olar? Əgər, xalq öz müqəddaratının sahibi deyilsə, onun dühası, cəsurluğu neyləyə bilər?

**Canişin:** Siz zərif bir şairəsiniz. Banu bəyim, həyatın sərt üzünü görməmisiniz. Xalq sizə əlvan buludlar üzərində uçuşan mələklər kimi görünür.

**Xurşidbanu:** Knyaz, mən xan qızı, əminəm ki, əgər, şeytanlar, mənsəb düşkünləri olmasaydı, zəhmətkeş xalqın, doğrudan da, mələk olduğuna siz də inanardınız! Satqınların, rəzil ikiüzlülərin qurduqları hiylə-fəsadların istedadlı, namuslu, mərd insanlara güc gəlməsi məni yandırır, knyaz!

**Canişin:** Etiraf edirəm ki, sizin sözlərinizdə həqiqət vardır. Lakin insanlar bu həqiqətin təntənəsini nə vaxt görəcək? O barədə bir söz deməkdə acizəm. Mən çalışaram, heç olmasa, sizin rəfiqiniz Seyid Hüseyni azad etdirim. İmperator sizin xətrinizi istəyir.

**Xurşidbanu:** (*qalxaraq)* Knyaz! Mən yalnız ərimin təvəqqəsi üçün gəlməmişəm.Mən istəyirəm ki, şahzadənin öldürülməsi Azərbaycanın üzərinə qara kölgə salmasın!

**Canişin:** Mənim hər şeyin ədalətlə həll olunmasına çalışacağıma əmin ola bilərsiniz, Banu bəyim.

*Səhnəcik bitdikdən sonra iştirakçıların yerini aparıcılar alır.*

**II Aparıcı:** Natəvanın əsərləri bədii sənətkarlıq baxımından kamil şeir nümunələridir. İncə mətləbləri, dərin hissləri qüvvətli lirika, poetik coşqunluqla cana gətirmək, şeirdə ifadə yığcamlığı, fikir əlvanlığı və məna dərinliyi yaratmaq onun sənətkarlığının əsas məziyyətləridir. Şifahi xalq ədəbiyyatından və klassik irsdən ustalıqla bəhrələnən şair, yeri gəldikcə bədii sual, xitab və nidalar işlətməklə, lirik qəhrəmanın daxili aləmini, onun hiss və duyğularını, heyrət, həyəcan, yalvarış və təəssüflərini canlı, təsirli əks etdirə bilmişdir. Şeirlərindəki bədii ifadə vasitələri, xüsusilə təkrirlər, qoşa qafiyələr, rədiflər, metafora və təşbehlər onun əsərlərinin şeiriyyətini, bədii-estetik təsirini daha da qüvvətləndirir. Bütün bu keyfiyyətlərinə görə, Xurşidbanu Natəvanın poeziyası bu gün də bəşəri arzularla, təmiz və pak hisslərlə, yüksək əməllərlə yaşayan insanların qəlbini, ruhunu oxşayır, onların mənəvi dünyasını zənginləşdirir.

**I Aparıcı:** Həyatın çox incə tərəflərini duyan, hiss edən, insan mənəviyyatının dərinliklərinə baş vuran, kövrək xarakterə və xasiyyətə malik şairə şəxsi həyatında daim fəlakətlərə uğramış, kimsə tərəfindən mənəvi təsəlli, ruhi yaxınlıq və qayğıkeş münasibət görməmişdir. Üstəlik sevgili oğlu Mir Abbasın vaxtsız ölümü şairənin ana qəlbinə sarsıdıcı, sitəmli və heç zaman unudulmayacaq yara vurmuşdur. Natəvan bütün ömrü boyu dərdli olmuş, qüssə içərisində gün keçirmiş və ömrünü bu minvalla başa vurmuşdur. Lakin şəxsi həyatında ona üz verən kədərlər, taleyinin bədbəxtliklər girdabından qurtula bilməməsi şairənin insanın işıqlı, xeyirxah əməllərinə inamını sarsıda bilməmişdir. Natəvan böyük təbiətli insanlara məxsus bir qətiyyətlə, sarsılmaz iradə gücünə və hünərə arxalanaraq öz həyatını əzablar və mübarizələr içərisində keçirsə də, insanlara sevinc və səadət mahnısı oxumuşdur. Bununla yanaşı, Natəvan şeirinin cövhərini və mayasını təşkil edən kədər motivlərinin mənbəyini araşdırmaq, onun hansı formalarda təzahür etdiyini görmək üçün onun qəzəllərinə müraciət etmək kifayətdir.

**II Aparıcı:** Natəvan şeirinə həyatdan gələn kədəri iki mühüm amillə izah etmək lazımdır. Birincisi, şairənin şəxsi yaşayışında ona üz verən təbii bədbəxtliklərdən, qadınlıq taleyinin uğursuz hadisələrlə rastlaşmasından irəli gələn fərdi-subyektiv kədərdir. İkincisi, dövrünün haqsızlıqlarına mərdliklə sinə gərən, qadın hüququnun müdafiə edilməsi uğrunda tərəqqi və azadlıq düşmənləri ilə ardıcıl mübarizə aparan vətənpərvər bir sənətkarın həyatda duyduğu təklikdən irəli gələn ictimai kədərdir. Şairə Azərbaycan ədəbiyyatının müstəsna insanlarından biri olmuşdur. Çünki onun yaradıcılıq fəaliyyəti təkcə şeirlə bitmir. Natəvan rəssamlıqla da məşğul olmuş, o, nəfis əl işləri, müxtəlif janrda tikmələr bacarığı ilə seçilmişdir. Natəvanın fitri istedadının üzə çıxması və çiçəklənməsində Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti də mühüm rol oynamışdır.

**I Aparıcı:** Şairənin 1872-ci ildə Şuşada yaratdığı "Məclisi-üns" (dostluq, ülfət məclisi) o dövrdə Azərbaycanın müxtəlif yerlərində təşkil edilmiş ədəbi məclislərin müstəqil bir qanadı idi. Xan qızı məclisə rəhbərliyi və onun bütün xərclərini öz üzərinə götürmüşdür. "Məclisi-üns" də tanınmış Qarabağ şairələri ilə yanaşı, məşhur xanəndə və sazəndələr də iştirak etmişlər. Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırmış, onun poeziyası professional Azərbaycan bəstəkarlarının əsərlərində öz əksini tapmışdır. Xurşidbanu Natəvanın həyat və yaradıcılığı şair və yazıçılarımızı da ilhamlandırmış, xalq şairləri ***Səməd Vurğun, Məmməd Rahim, Hüseyn Arif və başqaları onun haqqında şeirlər, poemalar, xalq yazıçıları Əzizə Cəfərzadə hekayələr, İlyas Əfəndiyev "Xurşidbanu Natəvan", şairə Fəridə Əliyarbəyli "Xan qızı", yazıçı Şövkət Məmmədova "Natəvan" pyeslərini, xalq artisti Vasif Adıgözəlov "Natəvan" operasını*** yazmışlar. Görkəmli heykəltaraş ***Eldar Ömərov*** şairin heykəlini yaratmış, bir çox rəssamlar, xüsusilə ***Altay Hacıyev, Mikayıl Abdullayev və Oqtay Sadıqzadə*** onun bədii obrazını tablolarda əbədiləşdirmişlər.

*Oxucular Məmməd Rahimin "Natəvan" poemasından səhnələşdirilmiş parçanı təqdim edirlər. Səhnəyə Natəvanın, Aleksandr Dumanın rolunu ifa edən oxucular çıxırlar. Natəvan yadigar olaraq yazıçıya Qarabağ xalçası və əl işini hədiyyə edir.*

**Natəvan:** Dünyada məşhurdur bizim Qarabağ
İncə xalısıyla, qoy məndən sizə,
Firəng ədibinə yadigar olsun
Bu Şuşa xalçası, bir də əl işim.

**Aleksandr Düma:** Təşəkkür edirəm hörmətinizə...
Getməliyəm...
Xanım, bağışlayınız,
Nə yazdırır sizə bu qəzəlləri?
Oxuduqca bayaq hey bağça-bağda
Susdu bülbüllər də yaşıl budaqda.
Başa düşməsəm də mənasını mən
Duydum o ahənglə dərindən-dərin
Ayrılmaq istərəm mən bu həyatla
Ən gözəl, ən şirin təəssüratla.
Təsiri altında xoş sətirlərin.

**Natəvan:** Qarabağın söyüdləri
Salxım-salxım budaqlar,
Anamın öyüdləri,
Zirvəsi qarlı dağlar,
Babamın nəsihəti,
Ellərimin qüdrəti,
Mən şeri, şeriyyəti
Ancaq sizdən almışam.
Sevincin ilk camını,
Şerimin ilhamını,
O düzdən, bu ağacdan,
Yanan şamdan, çıraqdan,
Axar, büllur bulaqdan,
Göy dənizdən almışam,
Zümrüd göl, gümüş ləpə!
Ətir yayan göy təpə!
Dumanlı, çənli dərə!
Rəngi əlvan mənzərə,
Ağunu şərbət kimi
Yolunuzda içmişəm.
Sizdən ötrü min kərə
Oddan, Sudan keçmişəm.

Qanlı dövran mənimlə
Eləməyir müdara;
Qəm tutub boğazımdan,
İstəyir çəksin dara.
Odlar yurdunu sevdim
Deyil yalnız Şuşanı.
Fələk möhrünü basmış,
Bir gün mən pərişanı
Ah, bu fani aləmə
Nakam doğmuşdur anam.
Ümidinin çırağı
Qırılmış Natəvanam.

**Aleksandr Düma:** Mersi, mersi, madam.

**II Aparıcı:** Natəvanın yaradıcılığında böyük ana məhəbbəti tez-tez tərənnüm edilir. Şairə vaxtsız ölmüş oğlunun taleyi üçün acı göz yaşları axıdır:

Yanar canım oğul, daim sənin nari - fərağında,
Neçə pərvanələr hərdəm yanar şəmin ayağında.
Güli – ruyin havasilə çıxır əflaka əfğanım,
Olur bülbül nəvası gül fəraqü iştiyaqında.
Sənin vəslin xəyaliylə gözü könlüm gəzər daim
Ki, çün, Məcnuni sərgəştə, gəzər Leyla sorağında.
Nə hali - qamətin zikri məim virdi - zəbanımdır,
Dəmadəm naleyi – qumri olur sərvin budağında.
O şirin ləblərin şövqi, günü – gündən olub əfzun,
Əgər Fərhad tək yüz il dolansam hicr dağında.
Hərisəm bəs ki, ol Şirin zəbanın zikrinə, hərdəm
Olur xoş nitqi tuti şəkər olsa dəmağında.

**I Aparıcı:** Məlum olduğu kimi, Natəvanın yaratdığı ana surətinin prototipi şairin özüdür. Qəzəllərində xatırlanan övlad-oğul isə ikidir. Onlardan biri ömrünün bahar çağında, yeniyetməlik dövründə həyata əlvida demiş, torpağa qovuşmuşdur. Ikincisi isə, ananı həsrətdə qoyaraq, uzaq bir diyara getmişdir. Bu övladlardan birincisi Mir Abbas, ikincisi isə Mehdiqulu xandır. Şairin "Əfsus", "Sənsiz", "Getmə" rədifli qəzəlləri Mir Abbasın ölümü münasibətilə yazılmışdır. Bu şeirlərin birincisində ananın bahar fəslində, təbiətin canlandığı, gözəlləşdiyi bir vaxtdakı əhvalı-ruhiyyəsi təsvir olunmuş, təbiətin şadlığı ilə ana qəlbinin kədəri arasında qüvvətli bədii təzad yaradılmışdır.

**II Aparıcı:** Natəvan öz kədərini bilavasitə dünyanın, cahanın və insanların vəfasızlığı ilə əlaqələndirir. Həyatın gedişatından, mövcud şəraitdən narazı qalan kədərli ana gördüklərinə təəssüf edir. Şair klassik ədəbiyyatda geniş yayılmış bədii təsvir və ifadə vasitələrindən istifadə edərək oğlunun ölümünü gül mövsümünün keçməsi, baharın solub getməsi, bülbülün xəstə halda tək-tənha qalması ilə müqayisə edir. Ana oğlunu əzəmət və şərafət bağında açılmış, lakin dövranın bağbanı tərəfindən çox tez qopardılmış gülə bənzədir. Oğlunu həzin, kədərli bir dillə ağlayan ana torpağa yalvararaq bu "gülbədən" cavanı əziz saxlamağı xahiş edir:

Keçibdi mövsimi-gül, getdi növbahar, əfsus!
Qalıbdı bülbüli-biçarə xarü zar, əfsus!

**II Aparıcı:** Natəvanın yaradıcılığı ilə XIX əsr Azərbaycan şeirinin lirik qəhrəmanı bədii struktur baxımından daha da zənginləşir. Romantik hiss və duyğularla yaşayan, səmimi və odlu məhəbbətlə sevən aşiq kimi ana surəti də kədərli və dərdlidir. Onların ikisini də hicran ağrıdır, ikisi də ayrılıqdan iztirab çəkir, qovrulur. Lakin kimin hicrinə ağrımaq, kimin həsrətini çəkmək məsələsində bu surətlər bir-birindən seçilirlər.

Aşiqi sevgilisinin, ananı isə, dünyadan cavan köçmüş övladının ayrılığı yandırır. Onun sinəsinə çalın-çarpaz bir oğul dağı çəkilmişdir ki, yarası gecə-gündüz göynəyib sızıldayaraq, ana qəlbinin fəryadlarına çevrilir. Bu şeirlərin hər misrasında müsibət içində olan ananın odlu qəlbi çırpınır.

**I Aparıcı:** Xurşidbanu Natəvanın qəzəllərinin mərkəzində insanpərvərlik, xeyirxahlıq, səmimi ülfət, dostluq ideyalarının tərənnümü dayanır. "Ey dost", "Xudahafiz" rədifli qəzəllərində o, bir-birini sevən insanlar arasına təfriqə, ayrılıq salmağa cəhd edən rəqibin xain, yaramaz əməlini pisləyir. Müasirlərinə riyakar, ikiüzlü, aravuran adamlardan uzaq gəzməyi təkidlə tövsiyə edir. Şair, eyni zamanda, dostluq ülfətini tutan kəsləri ehtiyatlı olmağa, rəqib fitnəsinə uymamağa çağırır. "Xudahafiz" qəzəlində ayrılıq vaxtının çatdığını duyaraq, vidalaşmaq üçün yar-yoldaşını başına toplamış xəstə, gücsüz bir aşiqin əhvalı təsvir edilir. Həyatdan "getmək növbəti" çatmış bu aşiqin dilindən söylənən qəzəl dünyada qalanlara vəsiyyət kimi səslənir. Şair başa salır ki, sevən kəslər həmişə bir-birinə vəfa göstərməli, dostluğun, məhəbbətin qədrini bilməlidirlər. Insanlar xudbin hisslərdən çəkinməli, mehriban olmalı, bir-birinin qədrini bilməlidirlər.

**I Aparıcı:** XIX əsr Azərbaycan lirikasının gözəl nümunələrindən biri olan "Olaydı" qəzəlinin dərin ictimai məzmunu vardır. XX əsrin görkəmli söz ustadı Səməd Vurğun "Xurşidbanu Natəvan" məqaləsində bu şeiri "böyük insanın qüssə və kədəri" kimi mənalandıraraq demişdir: "Şairəmizin bu acı sətirlərində feodal dünyasının düşüncə və hiss adamlarına nə qədər darlıq etdiyini görürük. Onların kədəri ictimai ədalətsizliyə qarşı, insanın köləliliyinə və onun ləyaqətinin alçaldılmasına qarşı olan protest formalarından biridir".

**II Aparıcı:** Natəvanın poetik irsini oxuduqca ürək dağlayan, tükürpədici bir fəryad eşidir, yandırıcı göz yaşları görür, qadın fəryadı duyuruq. Bu köməksiz bir qəlbdən doğan ictimai etiraz idi. Xan qızının xeyriyyəçiliyi və maarifçilik fəaliyyəti Qarabağın ictimai həyatında bahəm şəkildə təzahür etmişdir. Bir yandan öz obasına bulaq çəkdirən, digər xeyriyyə tədbirlərinin öncülü olan şair bölgədə maarifçiliyin təşəkkülünə də xüsusi diqqət yetirmiş, qızı Xanbikənin evində məktəb açmışdır. Günümüzədək təxminən 150-160 qəzəli gəlib çatmış Natəvanın dövrünün sayılıb seçilən simalarından olmasını sübutlayan faktlardan biri də Nəcəf bəy Vəzirov, Kərim bəy Mehmandarov, Mirzə Cəlil, Həmidə xanım Cavanşir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyov və Seyid Əzim Şirvani kimi böyük şəxsiyyətlərlə yaxın yaradıcılıq ünsiyyətində bulunmasıdır.

**I Aparıcı:** Şairə xalq kütlələri içərisində bilik yayır, elə bir zamanın gəlib çatmasını arzulayırdı ki, mənsubiyyətlərindən asılı olmayaraq, bütün adamlar maariflənmək imkanı qazansınlar. Natəvan hər yerdə yoxsulların, kimsəsizlərin müdafiəçisi idi. Deyirlər ki, Xurşidbanu Natəvan hansı kasıb evin qonağı olarmışsa, oturduğu döşəyin altına 100 manat pul qoyarmış, səbəbini soruşanda deyərmiş ki, hər kasıbı sevindirəndə aldığım həzzin dərəcəsi ölçüyə gəlmir. Natəvan neçə-neçə romana, poemaya mövzu olası bir dastan - ömür yaşayıb. Sovet hakimiyyəti illərində Natəvanın yaradıcılığı xalq kütlələri içərisində geniş yayılmışdır. Aşıqlarımız onun gözəl şeirlərini hər yerdə oxuyub, onun sözləri üzrə yeni-yeni nəğmələr yaradırdılar.

*Bu arada iştirakçılar əllərində saz, aşıq paltarlarında səhnəyə çıxaraq Natəvanın sözlərinə bəstələdikləri mahnıları oxuyurlar.*

**II Aparıcı:** Natəvanın məhəbbət mövzusunda yazdığı qəzəllərində həyatdan şikayət, peşmançılıq, yalvarış, nigarançılıq, təəssüf hissləri, zəmanədən, dövrandan narazılıq motivlərinə də gen-bol yer verilmişdir. İnsan taleyinə həssaslıqla yanaşan şair ictimai ədalətsizliyə, mənəvi buxovlara qarşı çıxaraq, oxucusuna zülmkarlıqdan, xudpəsəndlikdən uzaq olub, eşqi, məhəbbəti əziz tutmağı, şərəf və ləyaqətlə yaşamağı tövsiyə edir. Arzuladıqlarını həyatda görməyən şair lirik qəhrəmanın dili ilə dünyaya gəldiyinə, sevib-sevildiyinə təəssüf edir. Bu ruh "Olaydı" rədifli qəzəlində özünü aydın büruzə verir. İlahiyə müraciətlə deyilən bu qəzəldə şairin lirik qəhrəmanı maddi və mənəvi aləmdə qarşılaşdığı ziddiyyətlərə - "eşq içrə" şadlıqdan sonra axan göz yaşlarına, sərv boylu gözəl qamətin əlçatmaz olmasına, bülbülün güldən kənarda, gülün isə xar əlində qalmasına etiraz edir. O, həyatdakı ziddiyyətlərin səbəbini göylərin iradəsində görür, hicranla vüsalın, gülşənlə bülbülün möhnətinin, şadlıq və sevinclə bəlanın bir yerdə olmasına təəssüflənir. Yar vüsalından, gülşən seyrindən sonra gələn həsrət iztirablarını, ayrılıq dözülməzliyini, həyatın insana zindan kəsildiyini görəndə aşiq bədbinləşir, rəhmsiz dövranın alt-üst olmasını, ədalətsiz cəmiyyətin dağılmasını istəyir:

*Oxucu səhnəyə çıxıb X.Natəvanın "Olaydı" rədifini söyləyir.*

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı!

Nə Misr olaydı, nə Kənan, nə həsrəti-Yəqub,
Nə xar olub qəmi-hicranda, qərqi-matəm olaydı!

Nə çah olaydı, nə zindan, nə karvan güzəri,
Nə Yusifi bu bəlada görən bir adəm olaydı!

Nə bəzm olaydı, nə bazari-Yusif əhvalı,
Nə rəhgüzərdə Züleyxa qəmlə həmdəm olaydı!

Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,
Nə Natəvanın, ilahi, həvəsi dərhəm olaydı!

**II Aparıcı:** Natəvan sözü bütöv və sədaqətli şərqli-azərbaycanlı qadını olmuş, eləcə də ailəsinə, xüsusilə də övladlarına son dərəcə bağlı, qayğıkeş ana olaraq şəxsi həyatında daim iztirab duymuş, sevincin, şadlığın mahiyyət etibarlə nədən ibarət olduğunu, demək olar ki, dadmışdır. Sevimli oğlunun qəflətən, cavan yaşında vəfat etməsi çox təbii olaraq onun şeirlərinə bir hüzn, sarsıdıcı, küskün bir əhvali-ruhiyyə gətirmişdir.

*Oxucumuzun ifasında Natəvanın "Sənsiz" qəzəli səslənir.*

Bahar əyyamıdır, açıldı güllər, ey cavan sənsiz!
Təəccübdür nədən divanə olmaz Natəvan sənsiz?
Şəmadət eyləyir düşmən mənə hər dəm və hər saət,
Mərəz artır dəmadəm, varə - varə, hər zaman sənsiz.
Nə ümidim visalə, nə vəraqə tabü taqət həm,
Gözümdə tirəvü tar oldu, billah, bu cahan sənsiz
Sən əyləş hurilə, eylə həmişə eyşü işrət kim,
Dəmadəm mən çəkim dildən, edim ahü – fəğan sənsiz.
Yetişməz başə, Abbas, ömrüm axır bir tamam olsun,
Keçər hər bir dəqiqə ildən artıq, əlaman sənsiz.
Bu gün eydi – şərif oldu, məgər sən bixəbərsənmi?
Güman etmə ki, işrət içrə əylənsin anan sənsiz.
Güli – ruyindən ayrı neylərəm mən gülüstan seyrin?
Edən bülbül kimi nalə bu zarü Natəvan sənsiz!

**I Aparıcı:** Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Cavan, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər öz yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə Xurşudbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər. Xurşidbanu Natəvanın qəzəllərində aşiqanə motivlər birinci dərəcəli əhəmiyyət kəsb edir. Eşq, ümumiyyətlə, qəzəl janrının mərkəzi mövzusudur. Dahi Füzulidə olduğu kimi, Natəvanın qəzəllərində də, eşqin mənası və mahiyyəti insanı ucaldan, onu təbiətin nadir incisi, kamal və mərifət sahibi edən keyfiyyətdir. Xurşidbanu Natəvanın insana məhəbbət, həqiqətə inam və xeyirxah əməllərə ümid dolu poeziyası həmişə təzədir. Bu şeir öz mayasını, qaynaqlarını təbiətin munis gözəlliklərindən, baharın həyat qoxulu nəfəsindən, torpağın ətrindən götürmüşdür. Şairənin həyatı, yaradıcılığı, şəxsiyyəti gözəlliyə doğru üz tutmuş, gözəlliyi sevmiş və gözəl insan, məğrur insan uğrunda çarpışmışdır. Gözəllik və saflıq Natəvan şeirinin başlıca bədii-poetik xüsusiyyəti kimi meydana çıxmışdır.

*Oxucularımızın ifasında Xalq şairi Səməd Vurğunun "Natəvan" şeiri dinlənilir.*

I oxucu:

Üzündə son bahar, ağzında yaşmaq,
Sənin gözəlliyin solğun görünür.
Gəl yaxın əyləşək, yaxın danışaq,
Mənalı gözlərin dolğun görünür...
Söylə, şeirlərin can verir nədən?
Ağlayır dediyin dərdli qəzəllər.
Bir çiək qopardı hər gəlib gedən,
Sənin də payına düşdü xəzəllər...

II oxucu: Baxıb qərənfilin solğun rənginə,
O şəhla gözlərin incilər tökdü.
Bir qadın ruhunun dərinliyinə
Hər axşam yeni bir qaranlıq çökdü.
Əzəldən belədir eşqi – məhəbbət,
Səni də ağladan sevdamı, nədir?
Dərdin tarixlərin dərdidir, əvət!
Hicran göz yaşına bir bəhanədir...

III oxucu: Aşanda dağları çarın ordusu,
İncidin dünyadan, küsdün vətəndən.
Bir söylə, şairim! Nə sirdir bu –
Könüllər ayrıla bilməyir səndən.
Həyata ilk dəfə açıldı gözün
Tarixin doğduğu o qara gündə.
Oğlunun, qızının dönük ömürü
Keçdi ayrılıqda, keçdi sürgündə...

I oxucu: Sən söhbət açanda meydən, məzədən
O murdar ağzını büzdü şəriət...
Dönüb qövr elədi yaran təzədən,
Bir zindan kəsildi sənə təbiət.
O qəlbə, ilhama sığındıqca sən
Qaldırdın qədrini şerin, sənətin.
Sən bizim tarixə hədiyyəsisən
Əziz bir torpağın, bir məmləkətin.

II oxucu: Yırtıldı günəşin qara pərdəsi,
Qızlar qanad çalır ağ buludlara.
Gəzir dodaqlarda şeirinin səsi,
Oyan! Saçlarını təzədən dara!
İndi nə örtü var, nə örtünən var,
Nə həyat insanın belində yükdür.
Dəyişmiş gördüyün aciz qadınlar,

Onların şərəfi, qədri böyükdür.

**I Aparıcı:** Natəvan əsas etibarilə lirik şairədir. Natəvanın bütün yaradıcılığı XVI əsrin dahi Azərbaycan şairi Füzulinin təsiri altında olmuşdur. Talantlı və həsas şairə, nəcib insan olan Natəvan islamın və şəriətin zəncirini daşıyan feodal Azərbaycanında hüquqsuz qadının və ananın ağır vəziyyətini dərindən duyurdu. Natəvanın şeirlərində böyük insanın qüssə və kədəri var:

Zəmanə saldı əcəb möhnətü məlalə məni,
O mahrudan iraq verdi qəm zavalə məni
Başqa bir şeirində o belə yazırdı:
Nə mən olaydım ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləmərə dil müqəyyədi – qəm olaydı!

Şairəmizin bu acı sətirlərində feodal dünyasının düşüncə və hiss adamlarına nə qədər darlıq etdiyini görürük. Onların kədəri ictimai ədalətsizliyə qarşı, insanın köləliyinə və onun ləyaqətinin alçaldılmasına qarşıdır.

**I Aparıcı:** XIX əsrin bütün böyük Azərbaycan şairləri Natəvanın təşkil etdiyi "Məclisi-üns" ədəbi dərnəyinin üzvləri idi. Bir çoxları Natəvanı təqlid etmiş, öz şeirlərində onun adını tərifləmişlər. Q.Zakir, S.Ə.Şirvani, M.F.Axundov öz şeirlərində dəfələrlə Natəvanı tərənnüm etmişlər. Öz ömrü və qələmi bitkin bir "dünya fərağı" yaratmış Xurşidbanu Natəvan bütün müasirlərinin - müxtəlif sənət adamlarının, folklor müəllifi xalqın daimi marağında olmuşdur. Deyilənlərə görə, Xurşidbanu Natəvan gözəl şahmat oyunu ilə fransız yazıçısı Aleksandr Dumanı təəccübləndirmişdir. Yazıçı şairəyə şahmat taxtası hədiyyə vermiş, Şərq qadınının bu cür yüksək intellektə malik olmasını yüksək qiymətləndirmişdir. Ədəbiyyat tariximizdə dərin iz qoymuş şairlərdən olan Xurşidbanu Natəvanın adı gələndə bu gün gözlərimiz önündə düşmən tapdağı altında inləyən gözəl Qarabağımız canlanır. Qarabağ ədəbi mühitinin

formalaşmasına, inkişafına mühüm təsir göstərən Natəvan xalqımızın milli - mədəni irsinin zənginləşməsinə də böyük töhfələr vermişdir.

**II Aparıcı:** Natəvanın zəngin, dolğun və mənalı yaradıcılığı ilə yanaşı, həyatı da başdan-başa poeziyadır. Bu həyatın məna, fikir, doğruluq və gözəllik dolu mərhələlərinə baş vurduqca, insan qəlbən zənginləşir. Natəvan şeirlərində şəxsi şikayətdən ictimai şikayətə keçərək Azərbaycan qadınlığının hüquqsuzluğunu göstərmiş, onların dərdini, kədərini öz şəxsi dərdi kimi qəbul etmişdir. Ömrü boyu kimsəsizlərə pənah olan, yoxsullara əl tutan, doğma şəhəri Şuşada abadlıq aparan, şəhərə su çəkdirən, hətta Bibiheybət məscidinə ilk yol salan Natəvanı Azərbaycan xalqı daim xatırlayır, onun xatirəsini əziz tutur. Xan qızı Natəvanın şəxsiyyətini, ictimai fəaliyyətini xalqımız və dövlətimiz yüksək qiymətləndirmiş, onun adı əbədiləşdirilmişdir.

**II Aparıcı:** Ədəbiyyatımızda ağı, ağrı-acı mövzusunu mükəmməl sənət səviyyəsində təqdim edən “Ağlaram”, “Ölurəm”, “Sənsiz”, “Getdi” kimi yüksək ədəbi-bədii lövhələr yaradan bu xanım özündən sonrakı sənətkarlara özüylə bağlı yüksək yaradıcılıq ovqatı təlqin etmiş və etməkdədir. Hələ sağlığında böyük xanəndələri qəzəlləri ilə cəlb edən şair, sonralar öz irsi ilə tədqiqatçıları, rəssamları, heykəltaraşları, bəstəkarları da öz “qəmü-didar”ı üstə kökləmiş, bir sıra əsərlərin qəhrəmanına çevrilmişdir. 1897-ci ilin oktyabrında dünyasını dəyişib Ağdamın “İmarət” qəbristanlığında dəfn olunmuş Xan qızı o gündən sonra qəlblərdə böyük Azərbaycan qızı kimi yaşamaqdadır.

Ədəbi bədii gecənin sonunda kitabxananın müdriyyətinə söz verilir. Kitabxananın direktoru söhbətində bildirir ki, bu gün Natəvanın böyüyüb boya-başa çatdığı torpaqlar işğal altındadır. Şairənin büstü düşmən gülləsindən deşik-deşik olmuşdur. Yəqin ki, onun narahat ruhu bu torpaqlarda dolaşır, düşmən gülləsinə tuş gələn büstü bu mənzərəni seyr edir. İnanırıq ki, hörmətli Prezidentimiz cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Qarabağ torpaqları işğaldan azad olunacaq, Xurşidbanu Natəvanın növbəti yubileyi doğma vətəni olan Şuşada qeyd olunacaq, Natəvan nəslinin bu gün yaşayan nümayəndələri bunun şahidi olacaq və rahatlıq tapacaqlar. Kitabxana işçiləri olaraq bizim borcumuz Natəvanın həyat və yaradıcılığına, ictimai fəaliyyətinə dair bütün materialları toplayaraq daha ətraflı tədqiq etməkdən, onun şəxsiyyətinin təkraredilməzliyini, unikallığını xalqımıza çatdırmaqdan ibarətdir.

Ədəbiyyat siyahısı:

**Əsərləri**

Əsərləri. - Bakı : Lider, 2004. - 88 s. - (Klassik Azərbaycan Ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. – S.245-312. - (Azərbaycan Ədəbiyyatı).

Qəzəllər // Azərbaycan qadın şairləri antologiyası. – Bakı : Avrasiya press, 2005. – S.68-83.

***Dövri mətbuatda***

Natəvan X. Şuri - eşqin başıma axırı sövda gətirir : şeir // Ədəbiyyat qəzeti. - 2012. - 1 sentyabr. - № 32. - S. 3.

**Haqqında (Kitablarda)**

Əlioğlu M. Natəvan kədəri : məqalə // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 94-101.

Qacar Ç. Xan qızı - şairə : Xurşudbanu Natəvan // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - Bakı : OKA ofset, 2012. - S. 412-421.

Rəfibəyli N. İşıqlı həyat həsrətində : Azərbaycan qadın yazarları və bədii ədəbiyyatda qadın obrazları haqqında // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 308-315.

***Dövri mətbuatda***

Abbaslı T. Xan qızı-böyük Azərbaycan qızı : Xurşidbanu Natəvan haqqında // Mədəniyyət. - 2011. - 17. avqust. -№ 60. - S. 12.

Abbaslı T. Natəvan təntənəsi : Şuşanın "Məclisi-üns" yaradıcısı Beynəlxalq Muğam Mərkəzində // Mədəniyyət. - 2012. - 19 sentyabr. - № 67. - S. 6.

Abbaslı T. "Sevirəm" ."Yanıram"." Gedirəm"... : Xan qızı bütün bunlara əməl etdı, "Ölürəm"indən isə... nakam getdi // Mədəniyyət. - 2012. - 15 avqust. - № 59. - S. 13.

Abdullayeva K. Xurşudbanu Natəvan // Savalan. - 2014. - 19-22 sentyabr. - № 70. - S. 3.

Azəri L. Xurşudbanu Natəvanın qəzəlləri uşaqların dilində : F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbir // Mədəniyyət. - 2012. - 30 noyabr. - № 87. - S. 5.

Bayramova Z. Şuşanın Xan qızı : Bu gün Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın dogum günüdür // Səs. - 2015. - 6 avqust. - № 142. - S. 12.

Bədəlov N. Xurşidbanu Natəvan // El. - 2009. - № 9. - S. 64-71.

Çəmənli M. Xan qızı : Xurşudbanu Natəvan - 180 // Azərbaycan. - 2012. - 15 avqust. - № 181. - S. 7.

Əhmədalılar T. Xan qızı : şah dərdlər içrə mərd xanım - Xurşudbanu Natəvan! // Mədəniyyət. - 2013. - 4 oktyabr. - № 71. - S. 13.

Əlioğlu P. Onun ədəbi həyatı : Xürşidbanu Natəvan // Mədəni həyat. - 2012. - № 9. - S. 36-39.

Əliyev Z. Xurşudbanu Natəvanın bədii irsi : Xurşidbanu Natəvan - 180 // Qobustan. - 2012. - № 4. - S. 24-27.

Fərzəlibəyov M. "Xurşidbanu Natəvan" səhnəyə necə gəldi : [rejissor Mərahim Fərzəlibəyov ilə söhbət / yazdı A.İsmayıloğlu] // Ədəbiyyat qəzeti. - 2012. - 29 sentyabr. - № 36. - S. 2.

Fərzullayev A. Xurşudbanu Natəvanın həyat yoldaşı Xasay xan Usmiyev kimdir? // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2011. - № 3. - S. 70-74.

Hacıxalıl H. Dərdin adı Natəvan... : şairə Xurşidbanu Natəvan haqqında // Kaspi. - 2012. - 21 sentyabr. - № 388. - S. 12. ; Paritet. - 2012. - 18-19 sentyabr. - № 98. - S. 15.

Hacıyev Q. Təhsil, elm və mədəniyyətin beşiyi : tarix olduğu kimi // Azərbaycan. - 2015. - 12 fevral. - № 33. - S. 11.

Hüseynli İ. Xurşidbanu Natəvan - 180 // Təhsil problemləri. - 2013. - 01-07 fevral. - № 9/10. - S. 10.

Xan qızı Xurşidbanu Natəvanın öz əli ilə tikdiyi əşyalar tapılıb // Paritet. - 2012. - 11-13 avqust. - № 83. - S. 15.

Xəlilzadə F. Xan qızının övladları : Xurşudbanu Natəvan - 180 // Azərbaycan. - 2012. - 15 avqust. - № 181. - S. 7.

Xəlilzadə F. Natəvanın qəzəli, Xanlıq Şükürün avazı : mədəniyyət tariximizdən // Kaspi. - 2012. - 24-26 noyabr. - № 431. - S. 23.

Xəlilzadə F. Sinəsi dağlı diyarın unudulmaz simaları : Şuşanın işğalından 20 il ötür // Azərbaycan. - 2012. - 15 aprel. - № 81. - S. 6. ; 17 aprel. - № 82. - S.9.

Xəlilzadə F. Tək inci kimi parlayan Xan qızı : zəmanə Xurşudbanu Natəvana zərif qəlbinə sığmayan dərdlər çəkdirib // Kaspi. - 2015. - 11 aprel. - № 63. - S. 22.

Xurşidbanu Natəvan : görkəmli şəxsiyyətlər // Savalan. - 2008. - 15-17 aprel. - S. 2.

Xurşidbanu Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (3 aprel 2012-ci il) // Azərbaycan. - 2012. - 4 aprel. - № 71. - S. 3. ; Ədəbiyyat qəzeti. - 2012. - 6 aprel. - № 12. - S. 1. ; Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 2. - S. 2.

Qasımova E. Azərbaycanın tarixi mədəniyyət incisi : Şuşa : Xurşud Banu Natəvan (1830 -1997) : Mir Möhsün Nəvvab (1833 -1913) // Füyuzat. - 2007. - № 5 (37). - S.48-55.

Mehparə. Cəsarət və incəlik rəmzləri : Qarabağın Gövhər ağası, Ağabəyim ağası, Xurşidbanu Natəvan // Mədəniyyət. - 2010. - 26 fevral. - № 15. - S. 9.

Məmmədli R. Tariximizin fəxri - Xurşidbanu Natəvan // Mədəni Həyat. - 2013. - № 11. - S. 76-78.

Məmmədov X. Yaddaqalan görüş : Xurşidbanu Natəvan - 180 // Mədəniyyət. - 2012. - 2 noyabr. - № 79. - S. 15.

Məmmədova Z. Xurşidbanu Natəvan - incə qəlbli şair, böyük xeyriyyəçi // Azərbaycan Müəllimi. - 2012. - 19 oktyabr. - № 41. - S. 11.

Natəvana məhəbbətlə : Xurşidbanu Natəvanın abidəsi haqqında // Ədəbiyyat qəzeti. - 2012. - № 28. - "Ədəbiyyat qəzeti"nin 6 avqust 1982-ci il tarixli sayında Şuşada Xurşidbanu Natəvana abidə qoyulması və həmçinin poeziya bayramı keçirilməsini əks etdirən materallar dərc olunmuşdur.

Nəsrəddinov N. Xan qızı Natəvanın kasıb vaxtı miras istəyi // Kaspi. - 2014. - 12 iyun. - № 101. - S. 12.

Nizamiqızı H. Xan qızının rənglər dünyası : Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xan qızı Natəvanın əl işləri indi də bəzi muzeylərimizdə qorunub saxlanılır // Mədəniyyət. - 2008. - 3 iyul. - S. 14.

Novruzov T. Məhsətidən sonra ən böyük qadın şairəmiz : Xurşidbanu Natəvan // Kaspi. - 2014. - 10 iyun. - № 99. - S. 15. ; 11 iyun. - № 100. - S.15.

Nuriyev A. Xürşidbanu Natəvan - parlaq istedada və qabaqcıl ideyalara malik şəxsiyyət : Azərbaycan mədəniyyətində və ictimaii həyatında dərin izlər qoyan şairə qadının fəaliyyəti tək

şeirlə bitmir // Kaspi. - 2011. - 7 aprel. - № 58. - S. 11.

Rahim C. Dümanın Xan qızına bağışladığı şahmat fiquru bu muzeydədir : İncəsnət muzeyindən reportaj // Planet. - 2007. - 09 oktyabr. - S. 1,6.

Rüstəmli N. Görkəmli Azərbaycan qadınları // Respublika. - 2009. - 24 iyun. - S. 4.

Rüstəmov S. Xan qızı - şairə-qadın : Xurşidbanu Natəvan // Təhsil problemləri. - 2013. - 24-30 aprel. - № 31/32. - S. 12.

Şuşa milli mədəniyyətimizin beşiyi // Mədəniyyət. - 2011. - 6 may. - № 32. - S. 14.

Yaralı heykəl, yaralı yaddaş : XIX əsr şairəsi Xurşid Banu Natəvan haqqında // Pəncərə. - 2010. - № 22. - S. 36-41.

***Şairəyə həsr olunmuş bədii əsərlər***

Dəmirçi Z. Natəvana : Xurşid Banu Natəvana həsr olunmuş şeir // Qayalı. - Bakı : UniPrint, 2008. - S. 67.

Dəmirçi Z. Güllələnmişlər : poema // Qayalı. - Bakı : UniPrint, 2008. - S. 297-301.

Əfəndiyev İ. Xurşidbanu Natəvan : dram // Seçilmiş əsərləri. Üç cilddə. – Bakı: Avrasiya Press, 2005. – C.2. – S. 183-242.

Kürçaylı Ə. Natəvan : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 379-380.

Qızılağaclı T. Şuşadan məktub. – Bakı: Qanun, 2005. – 51 s.

Rahim M. Natəvan : poema // Seçilmiş əsərləri. – Bakı : Avrasiya Press, 2006. – S.150-200.

Vurğun S. Natəvana : şeir // Seçilmiş əsərləri. Beş cilddə. – Bakı : Şərq-Qərb, 2005. – C.1. – S.205-206.

**Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:08.02.2017
Tirajı:100
Pulsuz